# REGİONLARIN İNKİŞAFI AZƏRBAYCANDA XARİCƏ BEYİN AXININ QARŞISINI ALA BİLƏRMİ?



**Fədai Mərdanlı,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*e-mail: Mardanli.Fadai.Mehman.2023@unec.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.1.243*

**UOT:** 331.5

**Xülasə.** *Regionların qeyri-bərabər inkişafı Azərbaycanda həm daxili, həm də xarici miqrasiyanın artmasına gətirib çıxarmışdır. Son otuz ildə ölkə əhalisinin böyük bir əksəriyyəti daha yaxşı iş imkanları, yüksək gəlir və keyfiyyətli təhsil əldə etmək məqsədi ilə regionlardan paytaxt Bakıya köç etmiş, nəticədə rəsmi olaraq şəhərin əhalisi 1,3 milyondan 2,4 milyonadək yüksəlmişdir. Bu proses bölgələrdə əmək resurslarının azalmasına və Bakı şəhərində həddindən artıq urbanizasiyaya səbəb olmuşdur. Eyni zamanda yüksəkixtisaslı mütəxəssislərin xaricə miqrasiyası – beyin axını son illərdə daha da güclənmişdir. Mövcud tədqiqatların nəticələrinə əsasən, gənclərin yarıdan çoxu daimi olaraq ölkəni tərk etmək niyyətindədir.*

*Məqalədə daxili miqrasiyanın və beyin axınının əsas səbəbləri təhlil olunur. Analizlər göstərir ki, regionların balanslı və dayanıqlı sosial-iqtisadi inkişafı daxili miqrasiyanın miqyasını azaltmaqla yanaşı, xaricə beyin axınının da müəyyən qədər qarşısını ala bilər. Regionlarda infrastrukturun, sosial xidmətlərin, məşğulluq imkanlarının və həyat keyfiyyətinin artırılması insan kapitalının ölkə daxilində qorunmasına mühüm töhfə verir. Lakin beyin axınının tam qarşısının alınması üçün regional inkişaf siyasəti ilə yanaşı, ölkə miqyasında rəqabətqabiliyyətli əməkhaqqı səviyyəsi, elmi-tədris mühitinin gücləndirilməsi və şəffaf idarəetmənin təmin edilməsi zəruridir.*

***Açar sözlər:*** *regionların inkişafı, beyin axını, xaricə miqrasiya, insan kapitalı, regional disbalans.*
***Keywords:*** *regional development, brain drain, external migration, human capital, regional imbalance.*
***Ключевые слова:*** *развитие регионов, утечка мозгов, внешняя миграция, человеческий капитал, региональный дисбаланс.*

Azərbaycanda regionlarla paytaxt arasında sosial-iqtisadi inkişaf səviyyəsində nəzərəçarpan fərqlər mövcuddur. Bu fərqlər nəticəsində ölkədaxili miqrasiya axınları uzun illərdir ki, davam edir, xüsusilə də regionlardan Bakı şəhərinə güclü köç prosesi baş vermişdir. İnsanlar yaşadıqları bölgələrdə iş yerlərinin azlığı, maddi rifahın aşağı olması, ali təhsil və keyfiyyətli səhiyyə imkanlarının məhdudluğu səbəbindən paytaxta üz tuturlar. 2025-ci ilin əvvəlinə olan rəsmi məlumata görə, Azərbaycan əhalisinin artıq

54,4%-i şəhər yerlərində (əsasən Bakı və Abşeron bölgəsində) cəmləşmişdir, kənd əhalisinin payı isə 45,6%-ə enmişdir [1]. Bu dinamika şəhər və kənd populyasiyasının nisbətinin ildən-ilə şəhərlərin xeyrinə dəyişdiyini göstərir. Ölkə daxilində urbanizasiyanın sürətlənməsi nəticəsində Bakı şəhərinin əhalisi son onilliklərdə kəskin artmışdır. Paytaxtın cəlbedici əmək bazarı və infrastrukturu regionlardan gələn əhali üçün maqnit rolunu oynayır. Lakin Bakı və Abşeron yarımadasında əhali sıxlığının çoxalması nəqliyyat, ekoloji durum, sosial xidmətlər sahəsində müəyyən problemlər yaratmışdır. Digər tərəfdən regionlarda əhalinin azalması kənd təsərrüfatı məhsuldarlığına, kiçik və orta biznesin inkişafına mənfi təsir göstərir, bəzi kəndlərdə demoqrafik durğunluq müşahidə olunur. Bununla yanaşı, son illərdə Azərbaycandan xarici ölkələrə doğru "beyin axını" adlandırılan yüksəkixtisaslı kadr miqrasiyası da müzakirə mövzusudur. Qlobal miqyasda inkişaf etməkdə olan ölkələrin üzləşdiyi "beyin axını" problemi Azərbaycandan da yan keçməmişdir. İstedadlı gənclərin və peşəkar mütəxəssislərin bir qismi daha rəqabətli əməkhaqları, geniş karyera perspektivləri və stabil sosial mühit üçün xaricə köç etməyi üstün tutur. Rəsmi statistikaya görə, Azərbaycan son illərdə cüzi müsbət miqrasiya saldosuna malikdir (yəni ölkəyə gələnlərin sayı gedənlərin sayını bir qədər üstələyir), məsələn, 2023-cü ildə təxminən 3,7 min nəfər ölkəyə daimi yaşayış üçün gəlmiş, 2,5 min nəfər isə ölkəni tərk etmişdir [2]. Lakin bu rəqəmlər reallığı tam əks etdirməyə bilər, çünki bir çox gənclər və mütəxəssislər dəqiq statistika aparılmadan ölkəni tərk edir və ya təhsil almaq məqsədi ilə gedərək geri qayıtmırlar.

**Tədqiqatın məqsədi**

Məqalədə araşdırmanın məqsədi regionların inkişafı ilə "beyin axını" arasındakı mümkün əlaqəni təhlil etməkdir. Əsas tədqiqat sualı ondan ibarətdir ki, *"Regionların tarazlı inkişaf etdirilməsi Azərbaycandan xaricə beyin axınının qarşısını ala bilərmi?"*. Bu sual çərçivəsində əvvəlcə daxili miqrasiyanın səbəb və nəticələri araşdırılır, sonra isə xaricə miqrasiyanın (beyin axınının) motivasiyaları təhlil edilir. Mövcud statistik məlumatlar və elmi tədqiqatlar əsasında regionlardan Bakıya və Bakıdan xaricə gedən insanların qərarlarına təsir edən faktorlar müəyyən ediləcək, daha sonra regionların sosial-iqtisadi inkişafının bu faktorları necə dəyişdirə biləcəyi, beləliklə də potensial beyin axınının qarşısını almaqda oynaya biləcəyi rol müzakirə olunacaqdır.

**Tədqiqat hissəsi**

**Daxili miqrasiya: regionlardan Bakıya köçün səbəbləri və nəticələri**

Azərbaycan kontekstində daxili miqrasiyanın əsas istiqaməti regionlardan paytaxt Bakıya doğru olmuşdur. Bu prosesin kökündə dayanan bir neçə mühüm amili qeyd etmək olar. İlk növbədə, Bakı və Abşeron iqtisadi cəhətdən ölkənin ən inkişaf etmiş bölgəsidir: Ümumi Daxili Məhsulun (ÜDM) və investisiyaların böyük hissəsi paytaxtın payına düşür, iri sənaye müəssisələri, şirkətlərin baş ofisləri burada cəmlənmişdir. *Cədvəl 1-də* ölkə əhalisinin şəhər və kənd üzrə bölgüsünün zamanla dəyişməsi göstərilir. Göründüyü kimi, 2000-ci ildə ümumi əhalinin cəmi 51,1%-i şəhər yerlərində yaşayırdısa, 2025-ci ilə bu rəqəm 54,4%-ə yüksəlib. Bu artım, əsasən Bakı aqlomerasiyasının genişlənməsi hesabına baş vermişdir.

***Cədvəl 1.***
***Azərbaycan əhalisinin şəhər və kənd üzrə bölgüsü (seçilmiş illər üzrə)***

| İl | Ümumi əhali (min nəfər) | Şəhər əhalisi (min nəfər) | Kənd əhalisi (min nəfər) | Şəhər əhalisi (%) | Kənd əhalisi (%) |
|---|---|---|---|---|---|
| 2000 | 8032,8 | 4107,3 | 3925,5 | 51,1 | 48,9 |
| 2010 | 8997,6 | 4774,9 | 4222,7 | 53,1 | 46,9 |
| 2020 | 9974,0 | 5476,8 | 4497,2 | 54,9 | 45,1 |
| 2025 | 10224,9 | 5562,9 | 4662,0 | 54,4 | 45,6 |

***Qeyd:*** *2025-ci ilin göstəriciləri 1 yanvar 2025-ci il tarixinə hesablanmış rəsmi məlumatlardır. Şəhər əhalisi, əsasən Bakı, Sumqayıt, Gəncə və s. şəhərlərin sakinlərini, kənd əhalisi isə digər yaşayış məntəqələrinin əhalisini əhatə edir.*

***Mənbə:*** *DSK 2025*

Göründüyü kimi, son onilliklərdə şəhər əhalisinin payı davamlı şəkildə artsa da, bu artım sürəti tədricən azalmışdır. Əgər 2000–2010-cu illərdə şəhər payı ~2 faiz bənd artmışdırsa, 2010–2020-cı il aralığında artım ~1,8 bənd olmuşdur. Bu tendensiya göstərir ki, daxili miqrasiyanın ən intensiv dövrü müstəqilliyin ilk illərinə və 2000-ci illərə təsadüf edir. Həmin dövrdə bazar

iqtisadiyyatına keçid və neft bumunun təsiri ilə Bakı sürətlə inkişaf edirdi. Mütəxəssislərin araşdırmalarına görə, 1990-cı illərin sonu 2000-ci illərin əvvəllərində Bakı əhalisinin artımının təxminən yarısı, məhz daxili miqrasiyanın payına düşüb [3]. Regionların bir çoxunda isə əhalinin təbii artımı paytaxta miqrasiya səbəbindən balanslaşdırılıb və ya ümumiyyətlə, əhali sayı sabit qalıb.

Daxili miqrasiyanın əsas təkanverici faktorları sosial-iqtisadi amillərdir. ***Birincisi,*** əməkhaqqı fərqləri burada mühüm rol oynayır. Bakı şəhərində işçilərin orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən xeyli yüksəkdir. Məsələn, 2023-cü ildə Azərbaycanda orta aylıq əməkhaqqı ~934 manat olduğu halda, paytaxt Bakıda bu göstərici 1183 manata çatmışdır [2]. Hətta bəzi regionlarda orta əməkhaqqı paytaxtla müqayisədə iki dəfədən də aşağıdır. *Cədvəl 2-də* seçilmiş bölgələr üzrə orta aylıq əməkhaqqı göstəriciləri müqayisə edilir. Göründüyü kimi, Gəncə kimi böyük bir şəhərdə belə orta əməkhaqqı paytaxtdakının təxminən 60%-i qədərdir. Ölkənin ən aşağı əməkhaqqı olan rayonlarından biri Qaxda bu rəqəm cəmi 503 manatdır ki, bu da Bakı ilə müqayisədə 2,3 dəfə az deməkdir. Belə kəskin fərqlər gənc işçi qüvvəsini daha yüksək qazanc əldə etmək üçün paytaxta üz tutmağa sövq edir.

***Cədvəl 2.***
***Seçilmiş bölgələr üzrə orta aylıq əməkhaqqı (2023)***

| Ərazi | Orta aylıq əməkhaqqı (manat) | Qeyd |
|---|---|---|
| Bakı şəhəri | 1183,0 | Ən yüksək (paytaxt) |
| Abşeron-Xızı | 774,7 | (Bakıətrafı iqtisadi rayon) |
| Sumqayıt şəhəri | 830,4 | Böyük sənaye şəhəri |
| Gəncə şəhəri | 695,4 | İkinci böyük şəhər |
| Daşkəsən rayonu | 940,3 | Yüksək (mədən sənayesi) |
| Qax rayonu | 503,2 | Ən aşağı rayon |
| Ümumölkə orta | 933,8 | (Azərbaycan üzrə orta) |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi, 2024 (rəsmi hesabat məlumatları)*

***İkincisi,*** daxili miqrasiyaya təkan verən amillərdən biri də ali təhsil və ixtisasartırma imkanlarının Bakıda cəmlənməsidir. Azərbaycanda ali məktəblərin böyük əksəriyyəti paytaxtda yerləşir. Hazırda ölkədə fəaliyyət göstərən 51 ali təhsil müəssisəsindən 41-i (təxminən 80%-i) Bakı şəhərindədir [4]. Regionlarda cəmi bir neçə dövlət universiteti mövcuddur (Gəncə, Sumqayıt, Lənkəran, Naxçıvan və s. üzrə toplam 10 universitet). *Cədvəl 3-də* bu bölgü əyani göstərilir. Bu durum istedadlı gənclərin ali təhsil almaları üçün istər-istəməz paytaxta üz tutmasına yol açır. Məsələn, kənd rayonlarında yüksək nəticə göstərmiş abituriyentlərin çoxu təhsilini Bakıdakı universitetlərdə davam etdirir və əksər hallarda məzun olduqdan sonra paytaxtda qalaraq karyerasını davam etdirir. Nəticə etibarilə regionlar intellektual potensial baxımından itkiyə məruz qalır, Bakıda isə həm əhali sayı artır, həm də kadrlar arasında rəqabət güclənir.

***Cədvəl 3.***
***Ali təhsil müəssisələrinin coğrafi bölgüsü (2023)***

| Şəhər-region | Ali məktəb sayı | Əsas nümunələr (universitetlər) |
|---|---|---|
| Bakı | 41 | BDU, ADNSU, Tibb Univ., UNEC, ADAU, s. |
| Gəncə | 3 | Gəncə Dövlət Univiversiteti, Aqrar Univiversiteti, Texnologiya Universiteti |
| Naxçıvan MR | 2 | Naxçıvan Dövlət Universiteti, Naxçıvan Univ. |
| Sumqayıt | 1 | Sumqayıt Dövlət Universiteti |
| Lənkəran | 1 | Lənkəran Dövlət Universiteti |
| Mingəçevir | 1 | Mingəçevir Dövlət Universiteti |
| Digər regionlar (cəmi) | 2 | (Müxtəlif filiallar istisna olmaqla) |
| Cəmi Azərbaycan | 51 | |

**Mənbə:** *Axar.az portalının məlumatı (2023)*

Ali təhsilin və müasir peşə hazırlığının əldə olunması üçün paytaxta köçən gənclər əksər hallarda regionlara geri dönmürlər. Bu hal regionlarda “beyin itkisi” (daxili beyin axını) kimi qiymətləndirilə bilər. Yəni hər bir regionun yetişdirdiyi tələbə və mütəxəssislər Bakıda qərar tutaraq öz potensiallarını doğulduqları yerlərdən kənarda reallaşdırırlar. Bunun nəticəsində bölgələrdə innovativ ideyaların, yeni biznes təşəbbüslərinin qıtlığı hiss olunur. Eyni zamanda paytaxtda işçi qüvvəsinin təklifi artdığı üçün rəqabət yüksəlir və bu da bəzən yüksəkixtisaslı insanların belə tam məşğulluq tapa bilməməsinə gətirib çıxarır.

***Üçüncüsü,*** infrastruktur və həyat keyfiyyəti fərqləri də daxili miqrasiya qərarlarına təsir edir. Paytaxtda həm maddi, həm mədəni-sosial infrastruktur (müasir xəstəxanalar, özəl klinikalar, əyləncə və alış-veriş mərkəzləri, daha etibarlı elektrik və su təchizatı və s.) regionlarla mü-

qayisədə xeyli inkişaf etmiş vəziyyətdədir. Bölgələrdə isə bəzi hallarda əsas kommunal xidmətlərin çatışmazlığı insanları narazı salır. Məsələn, araşdırmalar göstərir ki, regionlardan xeyli insan, məhz daha stabil elektrik enerjisi, qaz və su təminatı olan yerlərə köç etməyə üstünlük verir [3]. Regionlarda sosial infrastrukturun (mədəniyyət evləri, keyfiyyətli məktəblər, uşaq bağçaları və s.) zəif olması da, xüsusilə gənc ailələri paytaxta cəlb edən amillərdəndir.

Daxili miqrasiyanın nəticələri həm donor, həm də resipiyent ərazilər baxımından nəzərdən keçirilməlidir. Donor, yəni əhalisi köç verən regionlar üçün nəticə bir tərəfdən iqtisadi durğunluq riskinin artmasıdır. Əhalinin azalması istehlakçı sayını azaldır, bazarın həcmini kiçildir və orada fəaliyyət göstərən yerli biznes subyektləri üçün tələbi aşağı salır. Digər tərəfdən regionlarda təsərrüfat işləri üçün işçi qüvvəsinin qıtlığı yarana bilər. Məsələn, kənd təsərrüfatı ilə məşğul olanların sayının son illərdə azalması bir çox yerlərdə müşahidə olunur ki, bunun bir səbəbi də gənc nəslin kənd yerlərini tərk etməsidir. Deməli, daxili miqrasiya kənd təsərrüfatı istehsalında azalmaya səbəb ola və ərzaq təhlükəsizliyinə dolayısı ilə təsir göstərə bilər.

Resipiyent ərazi, yəni Bakının özü üçün isə, kütləvi daxili miqrasiyanın nəticəsi infrastruktur yüklənməsi və sosial gərginlik riskidir. Şəhər əhalisinin sürətli artımı ictimai nəqliyyat, yollar, mənzil bazarı, səhiyyə və təhsil müəssisələrinin üzərinə düşən yükü artırır. Bakı artıq postsovet məkanının ən sıx məskunlaşmış paytaxtlarından birinə çevrilib və gündəlik pendel miqrasiya (ətraf qəsəbələrdən mərkəzə axın) da nəzərə alındıqda şəhərdə tıxac, ekoloji çirklənmə, kommunal sferada aşırı yüklənmə kimi problemlər yaranır. Bu məsələlər hətta dövlət səviyyəsində də etiraf olunur, məsələn, rəsmi qurumlar Bakının yükünün azaldılması məqsədi ilə bəzi dövlət universitetlərinin və müəssisələrin regionlara köçürülməsini təklif etmişlər. Yəni daxili miqrasiyanın tənzimlənməsi zərurəti hazırkı mərhələdə ölkənin gündəmindədir.

Ümumilikdə daxili miqrasiyanın güclənməsində regionların qeyri-bərabər inkişafı başlıca rol oynayır. *Bəs, əks-təsir mümkündürmü?, Regionların inkişafı daxili miqrasiyanı azalda bilərmi?*

Mövcud təcrübə göstərir ki, bəli. Əgər bölgələrdə iqtisadi canlanma təmin olunarsa, yeni iş yerləri yaradılarsa, infrastruktur yaxşılaşdırılarsa, insanlar kütləvi halda paytaxta üz tutmazlar. Məsələn, 2004–2018-ci illərdə həyata keçirilən Azərbaycan Respublikası "regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları" çərçivəsində bir sıra rayon mərkəzlərində sənaye müəssisələri açılmış, yollar çəkilmiş qaz elektrik xətləri yenilənmişdir. Bunun nəticəsində bəzi bölgələrdə miqrasiya balansı nisbətən stabilləşmişdir. DSK-nın məlumatlarına əsasən, 2013–2019-cu illər arasında bir sıra regionlardan (məsələn, İsmayıllı, Şəki, Astara və s.) Bakıya köç edənlərin sayında əvvəlki dövrlərə nisbətən azalma göstərilmişdir [5]. Bu fakt onu göstərir ki, bölgələrdə yaşayış şəraiti və imkanlar yaxşılaşdıqca, orada doğulan insanların öz regionlarında qalmaq ehtimalı yüksəlir. Əlbəttə, burada digər amillər də vardır ki, məsələn, ailə bağları, torpaq sahibliyi kimi faktorlar da qərara təsir edir. Lakin iqtisadi imkan fərqləri azaldıqca, insanlar sırf güzəran dalınca paytaxta gəlməyə daha az ehtiyac duyacaqlar. Beləliklə, regionların balanslı inkişafının "daxili beyin axını"nın qarşısının alınmasında əhəmiyyəti böyükdür. Əgər hər bir bölgədə gənclər üçün rəqabətədavamlı iş yerləri, müasir təhsil və karyera perspektivləri təmin edilərsə, ən istedadlı insan kapitalı Bakıda və ya ölkə xaricində cəmlənməz. Bu, ölkə daxilində insan resurslarının daha bərabər yayılmasına imkan verər və milli inkişaf üçün bütün regionların potensialından faydalanmağa şərait yaradar.

**Xaricə miqrasiya və "beyin axını": meyillər və qarşısının alınması yolları**

Daxili miqrasiyanın təhlili göstərdi ki, regionların inkişaf səviyyəsi insanların yaşayış yerini seçməsində həlledici rol oynayır. Bənzər şəkildə ölkənin ümumi inkişaf səviyyəsi və təklif edə bildiyi imkanlar da yüksəkixtisaslı kadrların ölkədə qalması və ya xaricə getməsi məsələsində əsas faktorlardır. "Beyin axını" termini adətən ali təhsilli, bacarıqlı mütəxəssislərin daha yaxşı iş və həyat şəraiti axtararaq öz ölkəsini tərk etməsi prosesini ifadə edir [6]. Azərbaycandan "beyin axını" xüsusilə son onilliklərdə diqqət çəkməkdədir. Bu prosesin miqyasını ölçmək çətin olsa

da, dolayı statistikalar və sorğu nəticələri müəyyən məlumatlar verir. Rəsmi demoqrafik statistika xaricə daimi köç edənlərin sayının çox yüksək olmadığını göstərir. Cədvəl 4-də Azərbaycanın son illərdə (2010–2023-cü illər üzrə) beynəlxalq miqrasiya axınları əks olunub. Məlum olur ki, rəsmi qeydiyyata düşən emiqrantların sayı illik min nəfər səviyyəsindədir, hətta bəzi illər (məsələn, 2011–2013) gələnlərin sayı gedənləri üstələmiş, müsbət saldo yaranmışdır. 2020-ci ildə ölkədən cəmi 600 nəfər daimi yaşamaq üçün getmiş kimi qeyd olunub. Lakin bu rəqəmlər tam reallığı əks etdirmir, çünki bir çox insanlar müvəqqəti iş miqrasiyası, təhsil və s. kanallarla gedib geri qayıtmaya da bilirlər, lakin onlar rəsmi "daimi emiqrasiya" statistikalarına düşmürlər.

***Cədvəl 4.***
***Azərbaycanın beynəlxalq miqrasiya axınları (seçilmiş illər üzrə, yuvarlaq göstərici)***

| İl | Ölkəyə gələn immiqrantlar | Ölkədən gedən emiqrantlar | Miqrasiya saldosu (netto) |
|---|---|---|---|
| 2010 | 2200 nəfər | 800 nəfər | +1400 nəfər |
| 2015 | 2700 nəfər | 1600 nəfər | +1100 nəfər |
| 2020 | 1700 nəfər | 600 nəfər | +1100 nəfər |
| 2023 | 3700 nəfər | 2500 nəfər | +1200 nəfər |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi (DSK), 2024*

***Qeyd:*** *Rəqəmlər daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxma və qeydiyyata düşməyə əsaslanan rəsmi statistikadır (min nəfərlə yuvarlaqlaşdırılmışdır). Müsbət saldo ölkəyə gələnlərin sayının gedənləri üstələdiyini göstərir.*

Göründüyü kimi, rəsmi rəqəmlərə əsasən, Azərbaycan 2010-cu ildə xalis immiqrasiya alan ölkəyə çevrilmişdir, yəni gələnlərin sayı gedənlərin sayından bir qədər çox olub. İllik net artım 1-2 min arası dəyişmişdir. Bu gələnlərin tərkibində əsasən əmək fəaliyyəti üçün gələn xarici ölkə vətəndaşları (məsələn, Türkiyə, Rusiya, Çin) üstünlük təşkil edir [6]. Gedənlərin rəsmi sayı isə çox aşağı olub. Lakin qeyri-rəsmi müşahidələr və sorğular fərqli mənzərəni üzə çıxarır, çoxlu sayda azərbaycanlı gənc əvvəl təhsil, sonra iş məqsədi ilə xaricə üz tutur və orada məskunlaşmağa çalışırlar. Son illər xüsusilə Avropa ölkələrinə üz tutan gənclərin sayında artım olduğu bildirilir [7].

Azərbaycandan "beyin axını"nın coğrafi istiqamətləri tarixi dövrlərə görə dəyişmişdir. 1990-cı ilin çətin iqtisadi şəraitində çoxlu sayda mütəxəssis və peşə sahibi Rusiya və digər MDB ölkələrinə üz tuturdu. Bu tendensiya bugünədək qismən davam edir, hazırda xaricdə yaşayan Azərbaycan əsilli insanların böyük qismi, məhz MDB məkanındadır. Məsələn, BMT-nin miqrasiya üzrə departamentinin (UN DESA) məlumatına görə, 2020-ci ildə təxminən 810 min Azərbaycan mənşəli insan xaricdə daimi yaşayırdı ki, onların təqribən 77%-i MDB ölkələrində idi [8]. Xüsusilə, Rusiya əsas cəlbedicidir, orada 600-700 min aralığında Azərbaycan diasporu mövcuddur. Bundan başqa, Qazaxıstan və Ukraynada birlikdə ~150 min civarında azərbaycanlı yaşayır [6]. Türkiyə də əhəmiyyətli istiqamətə çevrilməkdədir: Türkiyə rəsmilərinin açıqlamalarına görə, 2023-cü il etibarilə Türkiyədə 26 minə yaxın Azərbaycan vətəndaşı yaşayıb işləyir (TÜİK məlumatı). Avropa İttifaqı ölkələri və Şimali Amerika son on ildə daha çox azərbaycanlı mütəxəssisin üz tutduğu istiqamətlər olub. 2022-ci ildə Aİ ölkələri tərəfindən azərbaycanlılara 11.310 ədəd ilk dəfə oturma icazəsi verilib ki, bu da 2019-cu illə müqayisədə 32% çoxdur. Bu icazələrin əksəriyyəti Polşa, Almaniya, Litva kimi ölkələrdə əmək fəaliyyəti və təhsil məqsədi ilə verilib. Göründüyü kimi, azərbaycanlı mühacirlər ənənəvi olaraq postsovet məkanında cəmlənsələr də, son dövrdə Qərb ölkələrinə axın tempində də artım vardır.

Bəs kimlər ölkədən gedir? Əhali arasında aparılan sorğular və təhlillər göstərir ki, xaricə köç edənlərin arasında həm aşağı ixtisaslı işçilər məsələn, Rusiyada tikinti və xidmət sektorunda çalışanlar, həm də ali təhsilli mütəxəssislər mühəndislər, həkimlər, İT mütəxəssisləri, elm adamları və s. vardır. Burada iki fərqli miqrasiya nümunəsi müşahidə olunur. Birincisi, "əzələ axını" adlandırılan, daha çox fiziki əmək qüvvəsinin miqrasiyasıdır ki, bu, adətən kənd rayonlarından çıxan gənclər arasında yayılmışdır. Onlar əsasən Rusiya, Türkiyə kimi ölkələrdə fəhlə, usta, sürücü və s. kimi işləyirlər. İkincisi isə "beyin axını" adlanan yüksəkixtisaslı kadrların miqrasiyasıdır. Bu qrupdakı insanlar adətən əvvəl xaricdə ali təhsil alır, yaxud ixtisasartırma

kurslarında iştirak edir, sonra isə həmin ölkələrdə qalıb işləyirlər. Məsələn, son on ildə dövlət xətti ilə minlərlə tələbə xaricə təhsil almağa göndərildi, lakin onlardan bəziləri geri qayıtmadı. Yaxud da öz hesabına ABŞ, Avropa və ya Türkiyədə oxuyan azərbaycanlı gənclərin bir qismi təhsilini başa vurduqdan sonra həmin ölkələrdə yüksəkmaaşlı iş taparaq karyeralarını orada qururlar.

Xaricə miqrasiyanın, xüsusən beyin axınının əsas səbəbləri sırasında bir neçə məqam xüsusi vurğulanır. ***Birinci səbəb*** iqtisadidir, inkişaf etmiş ölkələrdə eyni ixtisas sahiblərinə təklif olunan əməkhaqqları, yaşayış standartları daha yüksəkdir. Məsələn, Azərbaycanda gənc bir mühəndis orta hesabla aylıq 800-1000 manat (təxminən 500$-600$) qazanırsa, Avropa və ya Şimali Amerikada bu sahədə əməkhaqqı bundan bir neçə dəfə artıqdır. Eyni zamanda inkişaf etmiş ölkələrdə elmi-tədqiqat mühiti və karyera irəliləyiş imkanları genişdir. Gənc alimlərin, İT mütəxəssislərinin dünya səviyyəli tədqiqat mərkəzlərində çalışmaq arzusu onları xaricə cəlb edir. Sosioloji sorğulara əsasən, azərbaycanlı gənclər arasında daha yaxşı maddi rifah, yüksək həyat tərzi və xaricə köçmək arzusu əsas yerdə durur [7]. Həmin tədqiqatda 1085 gəncin cavablarının analizi göstərib ki, "daha yüksək qazanc əldə etmək" respondentlərin böyük əksəriyyətinin xaricə getmək istəklərinin arxasında duran səbəbdir.

***İkinci əsas səbəb*** sosial və siyasi amillərlə bağlıdır. Gənclər arasında aparılmış eyni sorğu [7] ortaya çıxarıb ki, şəxsi azadlıqların təmin olunması, ədalətli rəqabət mühiti, ekoloji şəraitdən məmnunluq kimi faktorlar da daimi xaricə köçmək meylinə ciddi təsir göstərir. Başqa sözlə, bəzi gənclər daha açıq cəmiyyət quruluşu, söz azadlığı, təmiz təbiət şəraiti olan ölkələrdə yaşamağı arzulayırlar. Bu cavablar onu göstərir ki, təkcə iqtisadi deyil, həm də sosial mühitin keyfiyyəti beyin axınına təsir edir. Məsələn, yaradıcılıq və tədqiqat azadlığının məhdud olduğunu düşünən bir elmi işçi, öz potensialını tam reallaşdırmaq üçün xaricə üz tutma qərarı verə bilər.

***Üçüncü səbəb*** kimi təhsil amili qeyd edilə bilər. Xaricdə keyfiyyətli təhsil almaq arzusu çoxlarını ölkədən aparır. Statistikaya görə, hazırda təxminən 50 minə yaxın Azərbaycan gənci xarici ölkələrin ali məktəblərində təhsil alır [9]. Təkcə qardaş Türkiyədə oxuyan azərbaycanlı tələbələrin sayı 45 minə çatmışdır. Bu tələbələrin əksər hissəsi təhsil aldıqdan sonra vətənə dönsə də, bir qismi aldıqları yüksəkkeyfiyyətli təhsil əsasında xaricdə rahat iş tapır və geri qayıtmır. Xüsusən də informasiya texnologiyaları, maliyyə, tibb sahələri üzrə xaricdə təhsil almış gənclərin inkişaf etmiş ölkələrdə qalmaq ehtimalı yüksəkdir, çünki həmin ölkələr onlara daha yaxşı karyera perspektivi və elmi mühit təklif edir.

Azərbaycan hökuməti "beyin axını" riskini azaltmaq məqsədi ilə bir sıra addımlar atmışdır. Məsələn, "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində şərt qoyulmuşdur ki, dövlət xətti ilə oxuyan gənclər təhsillərini bitirib ölkəyə qayıdaraq müəyyən müddət işləməlidirlər. Lakin bunun tətbiqi tam effektiv olmayıb, bəzi məzunlar qayıtdı, bəziləri isə cərimələri ödəyib ölkədən getdilər. Sonrakı illərdə rəsmi şəxslər "beyin axını" probleminin mövcud olduğunu etiraf etmişlər. Məsələn, Baş nazirin müavini Əli Əhmədov qeyd edirdi ki, "əgər mütəxəssisləri yüksək əməkhaqqı ilə xaricə cəlb edirlərsə və onlar da gedirsə, buna faciə kimi baxmaq lazım deyil. Amma bu proses geniş axın halını alıb ölkənin inkişafına mane olarsa, dövlət həmin mütəxəssisləri vətənində saxlamaq üçün xaricdəki şəraiti burada yaratmalıdır" [10]. Bu fikir ondan xəbər verir ki, hökumət də rəqabətədavamlı şərait yaratmağın vacibliyini anlayır. Doğrudan da ölkə daxilində əməkhaqqları, elmi-texniki baza, sosial mühit xaricdəki səviyyəyə çatarsa, mütəxəssislər üçün "göndərən" ölkədən "qəbul edən" ölkəyə çevrilmək mümkündür.

"Beyin axını" probleminə qarşı bir strategiya da diaspor potensialından faydalanmaqdır. Xaricdə yaşayan azərbaycanlı mütəxəssislərlə əlaqələrin qurulması, onların bilik və təcrübələrinin ölkəyə transferi ("beyin dövranı" konsepsiyası) inkişaf etməkdə olan ölkələr üçün geniş tətbiq olunan bir yoldur [6]. Son illərdə Azərbaycan dövləti də diasporla işə xüsusi diqqət ayırır, xaricdəki azərbaycanlı alim və iş adamlarının Azərbaycana cəlb olunması üçün forumlar, tədbirlər təşkil edilir. Lakin etiraf etmək lazımdır

ki, hələlik diasporun geriyə dönüşü çox məhdud miqyasdadır. Buna səbəb yenə ölkə daxilində müvafiq sahələr üzrə imkanların məhdud olmasıdır. Məsələn, ABŞ-da yüksək texnologiyalar sahəsində çalışan bir mütəxəssis Azərbaycana qayıtdıqda eyni səviyyədə layihə və ya əməkhaqqı imkanı tapa bilməyəcəyindən çəkinir. Deməli, "beyin axını"nın qarşısını almaq üçün, ilk növbədə, ölkə daxilində şərait yaxşılaşdırılmalıdır ki, həm mövcud mütəxəssislər getməsin, həm də xaricdəki mütəxəssislər cəlb olunsun. Bu şəraitin yaxşılaşdırılması dedikdə, bir çox amillər nəzərdə tutulur. Regionların sosial-iqtisadi inkişafı da bu amillərdən biridir və mühüm komponent kimi çıxış edir. Regionların inkişafı təkcə daxili miqrasiyanı azaltmır, eyni zamanda ölkənin ümumi iqtisadiyyatını şaxələndirir, paytaxtdan kənarda yeni mərkəzlər yaradır. Məsələn, əgər Gəncə, Sumqayıt, Naxçıvan kimi şəhərlər yüksək texnologiyalar, sənaye, turizm sahələrində də inkişaf edərsə, "beyin axını"na qarşı "bufer" rolunu oynaya bilər. Gənc mütəxəssis xaricə getməkdənsə, öz şəhərində də müvafiq iş tapa biləcəyini hiss edərsə, o zaman ölkədən getməyə ehtiyac duymaz. Bu yanaşmanı təsdiqləyən beynəlxalq nümunələr də vardır. Məsələn, Hindistan hökuməti Banqalor və Haydarabad kimi şəhərləri "texnoloji mərkəzlər" kimi inkişaf etdirməklə çoxlu sayda İT mütəxəssisin də ölkədə qalmaq (hətta xaricdən geri dönmək) stimulunu yaratmışdır. Azərbaycanda da regionların inkişafı belə bir məqsədə xidmət edə bilər, "beyin axınının beyin dövranına çevrilməsi" mümkün olar. Yəni mütəxəssislərin ölkə daxilində hərəkəti təmin olunar, ölkədən xaricə kütləvi axın olmaz. Digər tərəfdən qəbul etmək lazımdır ki, tamamilə bütün "beyin axını"nın qarşısını almaq qeyri-mümkündür, hətta müəyyən dərəcədə əksinə, fikir mübadiləsi üçün beynəlxalq miqrasiya faydalı da ola bilər. Əsas məqsəd bu prosesi idarəolunan və "normada" saxlamaqdır. Yəni gənclər qloballaşan əmək bazarında iştirak edə, təcrübə qazana bilərlər, lakin vacib olan odur ki, onların əhəmiyyətli bir qismi ölkəyə geri dönsün və ya ölkə ilə əlaqəni itirməsin. Bunun üçün dövlət və özəl sektor tərəfindən xaricdə təhsil almış və ya iş təcrübəsi qazanmış kadrların Azərbaycana cəlbi üçün xüsusi proqramlar olmalıdır. Məsələn, bir çox ölkələrdə mövcud olan "Repatriasiya proqramları" vasitəsilə diaspora mütəxəssislərinə vətəndə yüksək vəzifələr, müxtəlif güzəştlər təklif olunur. Azərbaycanda da oxşar təşəbbüslərə ehtiyac vardır. Beləliklə, regionların inkişafı vasitəsilə "beyin axını"na qarşı mübarizə konsepsiyasını ümumiləşdirsək belə nəticəyə gəlmək olar:

- *Regionlarda yaradılan yeni iş yerləri və müəssisələr gənclərin yerində məşğulluğunu təmin edəcək, onların Bakıya və ya xaricə üz tutmaq ehtiyacını azaldacaqdır.*
- *Yerli infrastrukturun və yaşayış şəraitinin yaxşılaşdırılması (yollar, xəstəxanalar, məktəblər, internet və s.) bölgələrdə həyat keyfiyyətini yüksəldəcək, bu da "xaricdə daha yaxşı həyat" təəssüratını müəyyən qədər neytrallaşdıracaqdır.*
- *Regional ali təhsil ocaqlarının gücləndirilməsi region gənclərinin paytaxtdan kənarda təhsil alıb ixtisas qazanmasına şərait yaradacaqdır. Məsələn, əgər bir gənc Bakıdakı universitetlə eyni səviyyədə təhsilini Gəncədə ala bilərsə, bəlkə də Bakıya getməyəcək, eyni zamanda ölkədaxili keyfiyyətli təhsil alan gəncin xaricə üz tutmaq ehtimalı da azalacaqdır.*
- *Regional innovasiya mərkəzlərinin (texnoparklar, biznes-inkubatorlar) yaradılması bölgələrdə yüksək texnologiyalı və yaradıcı sahələrdə çalışmaq üçün şərait yarada bilər. Bu, potensial "beyin axını"nın qarşısını almaq üçün mühüm addımdır, çünki innovativ mühitin yoxluğu beyin axınına səbəb olan əsas faktorlardandır.*

**Nəticə.** Aparılan təhlillər onu göstərir ki, Azərbaycanda daxili miqrasiyanın (regiondan Bakıya) əsas səbəbi ölkə daxilində regional inkişaf disbalansıdır. İqtisadi fəaliyyətlər, iş imkanları, ali təhsil və infrastrukturun həddindən artıq paytaxtda cəmlənməsi nəticəsində bölgələrdən davamlı köç prosesi baş verir. Bu proses regionların sosial-iqtisadi inkişafına mənfi təsir edir, paytaxtda isə həddən artıq yüklənməyə gətirib çıxarır. Eyni zamanda "xaricə beyin axını"nın altında yatan səbəblər də oxşardır: ölkənin öz daxilində mütəxəssislər üçün istənilən səviyyədə şərait (əməkhaqqı, iş mühiti, sosial mühit) olmadığı hallarda, onlar xaricdə öz potensiallarını reallaşdırmağa çalışırlar. Müasir elmi

tədqiqatın nəticələri də bunu təsdiqləyir. Gənc azərbaycanlıların yarıdan çoxu daha yüksək həyat standartları axtarışı ilə ölkəni tərk etməyə hazır olduqlarını bildirirlər [7]. Bu cür "beyin axını" prosesinin qarşısını tam şəkildə almaq heç bir ölkədə mümkün olmasa da, onun miqyasını məhdudlaşdırmaq və idarə etmək mümkündür. Məqalədə irəli sürülən əsas tezis ondan ibarətdir ki, regionların tarazlı inkişafı Azərbaycanda "beyin axını"nı yavaşladacaq mühüm amil ola bilər. Regionlarda yeni iş yerlərinin açılması, yetərli əməkhaqqının təmin edilməsi, keyfiyyətli ictimai xidmətlərin (təhsil, səhiyyə və s.) əlçatanlığı gənclərin paytaxta və ya xaricə üz tutmaq ehtiyacını xeyli azaldacaqdır. Bununla yanaşı, regionların inkişafı ümumilikdə ölkə iqtisadiyyatını gücləndirəcək, innovasiya potensialını mərkəzdən kənara yayacaqdır ki, bu da daha çox mütəxəssisin ölkədə qalmasına stimul verə bilər. Lakin tək regional inkişafla kifayətlənmək olmaz. "Beyin axını"nın kompleks səbəbləri olduğundan, onun qarşısını almaq da çoxtərəfli tədbirlər tələb edir. Regionlarla yanaşı, ölkə miqyasında institusional islahatlar, yaxşı idarəetmə, qanunun aliliyi, azad elmi mühit kimi amillər də önəmlidir ki, yüksəkixtisaslı kadrlar vətənlərində dəyərli olduqlarını hiss etsinlər. Eyni zamanda ölkədən gedən kadrlarla əlaqəni qoruyub saxlamaq, onları geri qaytarmaq üçün xüsusi proqramlar tətbiq edilməlidir.

Sonda belə qənaətə gəlmək olar ki, regionların inkişafı "beyin axını"nın qarşısını almaq üçün zəruri, lakin kifayət olmayan şərtdir. Azərbaycanda regionların davamlı surətdə inkişaf etdirilməsi daxili miqrasiyanı azaltmaqla yanaşı, ölkənin ümumi sosial-iqtisadi mühitini yaxşılaşdıracaq və bunun sayəsində bəzi mütəxəssislərin xaricə getmək ehtiyacı ortadan qalxacaqdır. Lakin "ən istedadlı beyinləri" tam saxlaya bilmək üçün inkişaf göstəriciləri ölkə üzrə hər yerdə rəqabətqabiliyyətli olmalı, intellektual fəaliyyət layiqincə dəyərləndirilməlidir. Uzunmüddətli perspektivdə isə, regionların hərtərəfli tərəqqisi və ölkə miqyasında inklüziv inkişaf şəraiti təmin olunarsa, Azərbaycan "beyin axını"nı minimuma endirəcək, hazırladığı insan kapitalının bəhrəsini öz daxilində görə biləcəkdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Dövlət Statistika Komitəsi (DSK). Demoqrafik göstəricilər haqqında rəsmi məlumat (01.01.2025 tarixində əhalinin şəhər/kənd üzrə bölgüsü). Bakı, 2025.

2. Dövlət Statistika Komitəsi (DSK). Əmək bazarı və əməkhaqqı göstəriciləri üzrə statistik bülleten (orta aylıq nominal əməkhaqqının regionlar üzrə bölgüsü, 2023). Bakı, 2024.

3. Mehralizadeh F. Daxili miqrasiya Azərbaycanda: səbəbləri, nəticələri və əsas meyillər. Bakı Araşdırma İnstitutu, 18 sentyabr 2023. https:bakuresearchinstitute.org

4. Axar.az Azərbaycanda ali məktəblər. 2023 https://axar.az/news/gundem/793822.html

5. Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikasının demoqrafik göstəriciləri: (2013–2019-cu illər üzrə statistik məcmuə). Bakı, 2020.

6. International Organization for Migration (IOM). Migration in the Republic of Azerbaijan: Country Profile 2013 – 2021. Geneva: IOM Publications, 2022.

7. Aliyev X., Abbasova A., Alishzada R., Jafarova A. Expatriation and permanent emigration intention among youth in Azerbaijan. Journal of International Studies, 2023, 16 (4), pp.181-194.

8. United Nations Department of Economic and Social Affairs (UN DESA). International migrant stock, 2020, Report.

9. United Nations Educational, Scientific and Cultural Organization (UNESCO). Global Education Monitoring Report Technology in education – A tool on whose terms?

10. Əhmədov Ə. Azərbaycan hökuməti ölkədəki vəziyyəti Avropa standartlarına uyğunlaşdırmağa çalışır. Bakı, 1 may 2017, Report.az.

**F.Mardanli**

## Can regional development prevent the "brain drain" from Azerbaijan?

**Abstract**

Uneven regional development in Azerbaijan has intensified both internal and external migration. Over the past thirty years, a significant part of the population has migrated from the regions to the capital, Baku, seeking better employment opportunities, higher wages, and

quality education. As a result, Baku's population has risen from 1.3 million to 2.4 million, leading to excessive urbanization in the capital and a loss of labor resources in the regions. At the same time, the emigration of highly qualified professionals the so-called "brain drain" – has become stronger in recent years. According to current studies, more than half of young people in Azerbaijan intend to leave the country permanently.

This article analyzes the main causes of internal migration and brain drain. The findings indicate that balanced and sustainable socio-economic development of the regions can not only reduce the scale of internal migration but also partially mitigate the outflow of skilled human capital abroad. Improving infrastructure, social services, employment opportunities, and living conditions in the regions contributes to retaining human capital within the country. However, to completely prevent brain drain, regional development must be complemented by nationwide measures such as competitive wage levels, a strengthened academic and research environment, and transparent governance.

**Ф.Мерданлы**

## Может ли развитие регионов предотвратить «утечку мозгов» из Азербайджана?

**Аннотация**

Неравномерное развитие регионов Азербайджана привело к усилению как внутренней, так и внешней миграции. За последние тридцать лет значительная часть населения переселилась из регионов в столицу Баку в поисках лучших рабочих мест, более высоких заработков и качественного образования. В результате численность населения Баку увеличилась с 1,3 до 2,4 миллиона человек, что вызвало чрезмерную урбанизацию столицы и сокращение трудовых ресурсов в регионах. Одновременно усилилась эмиграция высококвалифицированных специалистов – так называемая «утечка мозгов». Согласно современным исследованиям, более половины молодых граждан страны намерены навсегда покинуть Азербайджан.

В статье анализируются основные причины внутренней миграции и «утечки мозгов». Анализ показывает, что сбалансированное и устойчивое социально-экономическое развитие регионов может не только снизить масштабы внутренней миграции, но и частично сдержать выезд квалифицированных кадров за рубеж. Улучшение инфраструктуры, социальных услуг, занятости и качества жизни в регионах способствует сохранению человеческого капитала внутри страны. Однако для полного предотвращения «утечки мозгов» наряду с региональной политикой необходимо обеспечить на общегосударственном уровне конкурентоспособную заработную плату, укрепить научно-образовательную среду и повысить прозрачность управления.